# ELM NƏŞRİYYATININ YARANMASI VƏ FƏALİYYƏTİ

**Ellada Balayeva**
*Kitabşünaslıq və nəşriyyat işi kafedrasının doktorantı*

**Xülasə:** Məqalədə Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində təsis edilən "Elm" nəşriyyatının yaradılması, inkişafı və fəaliyyət mexanizmi kompleks şəkildə təhlil edilmişdir. Respublikamızda elmin bütün sahələrinə dair fundamental, ümumiləşdirici əsərlər tərtib edən "Elm" nəşriyyatının əsas istiqamət sferaları öyrənilərək, yarandığı dövrdən müasir zamanadək keçdiyi inkişaf yolları ümumilikdə araşdırılmışdır.

**Резюме:** В статье анализируются создание, развитие и механизм издательства "Наука", созданного при Национальной академии наук Азербайджана. Основные направления издательства «Вяз», которое составляет фундаментальные, обобщающие работы по всем направлениям науки в нашей республике, изучены в целом, а пути его развития изучены в целом с момента его создания.

**Summary:** The article analyzes the creation, development and mechanism of the "Science" publishing house established under the Azerbaijan National Academy of Sciences. The main directions of "Elm" publishing house, which compiles fundamental, generalization works on all areas of science in our Republic, have been studied in general, and its development paths have been studied in general since its inception.

**Açar sözlər:** elm nəşriyyatı, nəşr fəaliyyəti, nəşriyyatın inkişafı, nəşriyyatın təşəkkülü

**Ключевые слова:** научное издание, издательская деятельность, издательское образование.

**Key words:** science publishing, publishing activities, publishing development, publishing formation

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən 2000-ci il 30 may tarixində "Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının qanun"u qüvvəyə minmişdir. Bu qanunda qeyd edilmişdir ki, nəşriyyat anlayışının mahiyyəti əsas fəaliyyət sahəsi müəllifə sifariş verməklə və ya müəllifin (müəlliflik hüququ sahibinin) sifarişi ilə nəşriyyat məhsullarının hazırlanması, istehsalı və ya yayımından ibarət olan ixtisaslaşmış mədəniyyət müəssisəsi hesab edilir. (Azərbaycan Respublikasının Nəşriyyat işi haqqqında qanunu.- Bakı, 30 may 2000-ci il № 887-IQ.-13 s.S 1)

Müstəqil Azərbaycan dövlətinə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə ölkədə elmin inkişafı, elmi-texniki potensialın güclənməsi, yüksəkixtisaslı elmi kadrların hazırlanması, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması sahəsində önəmli tədbirlər həyata keçirilmişdir. Prezident Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli Elmlər Akademiyası" statusu verilmişdir. Bu tarixi fərman Azərbaycanda fundamental elmin əldə etdiyi nailiyyətləri, Azərbaycanın sosial-iq-



tisadi, mədəni və mənəvi təşəkkülündə elmin rolunu, ölkənin ictimai-siyasi həyatında nüfuzunu və akademik elmin suveren Azərbaycan dövlətinin tərəqqisinin təminatçısı olduğunu bir daha təsdiqləyir. Yaranan gündən etibarən Azərbaycan Milli Elmlər Akademiyanın nəzdində nəşriyyat-poliqrafiya mərkəzinin yaradılması elmin inkişafında xüsusi əhəmiyyət kəsb edirdi.

Azərbaycan Milli Elmlər Akademiyasının nəşriyyat fəaliyyəti Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti nəzdində şöbə kimi, sonralar Az.FAN (1939-cu ildən) yanında davam etmişdir. 1997-ci ildən AMEA-nın redaksiya-nəşriyyat işləri "Elm" Redaksiya, Nəşriyyat və Poliqrafiya Mərkəzində cəmləşdirilmişdir. AMEA Rəyasət Heyəti Mərkəzi aparatının tərkibində 2014-cü ildə yaradılmış "Elm" nəşriyyatı hal-hazırda bu işləri davam etdirir. "Elm" nəşriyyatı ədəbiyyat növləri – monoqrafiyalar, elmi məcmuələr, lüğətlər (terminoloji, ikidilli və çoxdilli), klassiklərin çoxcildlik əsərlərini, elmi-kütləvi kitabçalar, elmi jurnallar, soraq kitabçaları, biblioqrafik ədəbiyyat buraxan ixtisaslaşmış nəşriyyatdır. (Azərbaycan Milli Elmlər Akademiyası-70.-488s. S 440)

Respublikamızda elmin bütün sahələrinə dair fundamental, ümumiləşdirici əsərlər "Elm" nəşriyyatı tərəfindən nəşr edilmişdir. "Azərbaycan geologiyası", "Azərbaycan SSR atlası", "Azərbaycanın palçıq vulkanları atlası", "Azərbaycanın təbaşir faunası", "Böyük Qafqazın təbii ehtiyat potenasialı", "Kəsilməz spektorların operatorlar dəstəsi", "Selenid qallium tipli laylı kristallarda dinamik və statik qeyri-xətti effektlər", "AIII BVI tipli yarımkeçiricilərdə lazer şüalanmasının qarşılıqlı təsiri", "Azərbaycan florası", "Azərbaycan mikroflorası", "Xəzər dənizinin heyvanlar aləmi", "Azərbaycan buğdaları", "Azərbaycanın Qırmızı kitabı", "Ehtimal nəzəriyyəsi və riyazi statistika müntəxəbatı", "Azərbaycan tarixi" (7 cilddə), "Azərbaycan ədəbiyyatı tarixi" (6 cilddə), "Azərbaycan fəlsəfə tarixi" (3 cilddə), "Azərbaycan Atabəylər dövləti", "Şirvanşahlar dövləti", "Azərbaycanlılar: etnogenez və millətlərin formalaşması", "Azərbaycan inşaat sənəti", "Azərbaycan rəngkarlığı", "Azərbaycan xalçası", "Azərbaycanın dövlət və hüquq tarixi", "Azərbaycan abidələrinin epiqrafik korpusu", "Azərbaycan dilinin qrammatik əsasları", "Azərbaycan ədəbi dilinin tarixi" (2 cilddə), "Çoxcildlik Azərbaycan teatr tarixi" I cild əsərləri o sıradandır.

"Azərbaycanın klassik irsi" çoxcildlik seriyasından Nizami, Füzuli, Nəsimi, Xətai, A.Bakıxanov, N.B.Vəzirov, S.Ə.Şirvani, M.F.Axundov, M.Hadi, C.Məmmədquluzadə, M.Ə.Sabir, S.Vurğun, H.Cavid və başqa Azərbaycan klassiklərinin akademik nəşrləri çap olunmuşdur.

Nizaminin yubileyi münasibətilə böyük şairin bütün əsərləri – ölməz "Xəmsə"sinin Azərbaycan və rus dillərində poetik və filoloji tərcümələri, habelə nizamişünaslıq üzrə bir sıra monoqrafiyalar nəşr edilmişdir. Nəşriyyatda dördcildlik "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası", "Azərbaycan aşıqları və el şairləri", "Azərbaycan dastanları", "Azərbaycan bayatıları" kimi sanballı, ümumiləşdirici əsərlər çap olunmuşdur.

Respublikamızın müstəqillik qazanması ilə əlaqədar olaraq Azərbaycan tarixinin açılmamış səhifələrini əks etdirən bir sıra əsərlər (M.Ə.Rəsulzadənin əsərləri: "Azərbaycan Cümhuriyyəti", "Stalinlə ixtilal xatirələri" və s.) ilk dəfə işıq üzü görmüşdür. Bir sıra əsərlərdə qondarma "Qarabağ problemi"nin geniş təhlili verilir, erməni millətçilərinin təcavüzkarlığı və Zaqafqaziyadakı qanlı münaqişələrdə Daşnaksütun partiyasının iyrənc rolu ifşa edilir ("Dağlıq Qarabağ. Tarix. Faktlar. Hadisələr", "DQMV ətrafında hadisələr saxtakarların əyri güzgüsündə", "Düşmənin iç üzü. XIX əsrin sonları – XX əsrin əvvəllərində Zaqafqaziyada erməni millətçiliyinin tarixi", "Ermənilik", "Ermənilər və həqiqətlər" və s.). Bundan əlavə 1988-1990-cı illərdə EA "Xəbərləri"nin (tarix, fəlsəfə və hüquq seriyası) erməni millətçilərinin Qarabağla əlaqədar fitnəkarlıqlarını elmi cəhətdən ifşa edən xüsusi nömrələri buraxılmışdır. Nəşriyyat inqilabdan əvvəlki xarici və rus müəlliflərinin bu mövzuya dair dəyərli tarixi əsərləri-ni (Jorj de Malevil, "1915-ci il erməni faciəsi"; V.Veliçko,"Qafqaz"; İ.Q.Çavçavadzade, "Erməni alimləri və fəryad edən daşlar"; S.N.Qlinka, "Azərbaycan ermənilərinin Rusiya ərazisinə köçürülməsinin təsviri" və s.) yenidən nəşr edilmişdir. (Azərbaycan Milli Elmlər Akademiyası-70.-488s. S 441)

Respublikanın mədəni həyatında fundamental nəşrlər mühüm rol oynayır. Çoxcildlik "Azərbaycanca-rusca lüğət", "Rusca-azərbaycanca lüğət", "Orfoqrafiya lüğəti", "İngilis dilinin sistemli lüğəti" və s. nəşr edilmişdir.

90-cı illərin ikinci yarısından başlayaraq yüksək dövlət səviyyəsində AMEA-ya olan diqqət və qayğı onun nəşr fəaliyyətini də yenidən qurmağa imkan verdi. Nəşriyyat və poliqrafiya ilə bağlı təşkilatlar "Elm" Redaksiya, Nəşriyyat və Poliqrafiya Mərkəzində birləşdirildi və yaxın illər üçün AMEA-nın nəşr siyasəti müəyyən edildi. Alimlərimizin uzun illərdən bəri üzərində işlədiyi çoxcildliklərin nəşrinə başlandı. Yeddi cildlik "Azərbaycan tarixi" yenidən işlənib nəşr edildi. Bu nəşr xalqımızın icyimai-siyasi və mədəni həyatında böyük hadisədir. Altı cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin 4 cildi və üç cildlik "Azərbaycan fəlsəfə tarixi"nin 2 cildi nəşr edilmiş, digər cildlərin nəşri prosesi davam etdirilir.

"Elm" nəşriyyatı Azərbaycan dövləçiliyi, onun müstəqil dövlət quruculuğu ilə bağlı fundamental əsərlər nəşr etmişdir. "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı", "Heydər Əliyev və Azərbaycan incəsənəti", "Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili", "Heydər Əliyev və Azərbaycan elmi", "Azərbaycanda Heydər Əliyevin aqrar siyasəti" kimi əsərlər ümummilli liderimizin xalqımızın mənəvi-siyasi həyatındakı nəhəng fəaliyyətini əks etdirir.

Azərbaycan tarixinin, ədəbiyyatının və mədəniyyətinin öyrənilməmiş dövrlərini və şəxsiyyətlərinin xidmətlərini əks etdirən fundamental nəşrlərdən "Azərbaycan Demokratik Respublikası (sənədlər və materiallar toplusu)" (Azərbaycan və rus dillərində) əsəri, "Naxçıvan orta əsr mənbələrində", C.Quliyevin "İkinci Azərbaycan Respublikasının yaranması tarixinə dair", "Azərbaycan Xalq Cümhuriyyəti (ədəbiyyat, dil və mədəni quruculuq)", A.Rzayevin "Azərbaycan siyasi və hüquqi təlimləri tarixi", T.Köçərlinin "Qarabağ", "Türkiyə Respublikası və Osman dövləti", Yaşar Qarayevin "XIX-XX yüzilliklər Azərbaycan ədəbiyyatı tarixi" kitablarını xüsusi qeyd etmək lazımdır. "Kitabi-Dədə Qoqrud" dastanlarının tədqiqinə həsr edilmiş iyirmiyə yaxın kitab əsasən yeni tədqiqatların nəticələridir. Ş.Cəmşidovun "Kitabi-Dədə Qorqudun tekstoloji tədqiqi", "Kitabi-Dədə Qorqud" (məqalələr toplusu), "Kitabi-Dədə Qorqud"un izahlı lüğəti", "Kitabi-Dədə Qorqud"un statistik təhlili" əsərləri qorqudşünaslığı zənginləşdirmişdir.



Tarix və filologiya sahəsində nəşr olunmuş əsərlərdə yeni fakt və sənədlər üzə çıxarılır, zəngin arxiv materialları milli ideoloji zəmində təhlilə cəlb olunur. Azadə Rüstəmova, Bəkir Nəbiyev və Y.Qarayevin "Azərbaycan ədəbiyyatı", C.Quliyevin "Tarix: düşüncələr, mülahizələr, qeydlər (1953-2003)", T.Mustafazadənin "XVIII yüzillik və XX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri", Ş.Alışanovun "Sözün estetik yaddaşı", Ş.Mustafayevin "Səlcuqilərdən Osmanlılara" A.Rzayevin "Nəsirəddin Tusi", "Ədəbi-nəzəri fikir iki əsrin qovşağında" (kollektiv), T.Kərimlinin "Nizami və tarix". "Məhəmməd Füzulinin əlifba-tezlik sözlüyü", "Milli strategiyalar, ideologiyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və müasir praktikalar", İ.Quliyevin "Hədisşünaslığın əsasları" və s. bu səpgidəndir. (Azərbaycan Milli Elmlər Akademiyası-70.-488s. S 443)

İqtisadçı alimlərimiz müasir Azərbaycan iqtisadiyyatının problemləri ilə yanaşı, iqtisadi fikir tariximizi, onun nəzəri-metodoloji problemlərini əhatə edən əsərlər nəşr etdirmişlər. A.Nadirovun "Azərbaycan iqtisadiyyatı", Ş.Muradovun "İnsan potensialı: əsas meyllər və problemlər", "Azərbaycan iqtisadiyyatı" (kollektiv) nəşrlər ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. "Elm" nəşriyyatının son illərdəki nəşrləri sırasında üç cildlik "Azərbaycan heyvanlar aləmi" əsərinin rus və Azərbaycan dillərində çapı xüsusi yer tutur. Bu fundamental nəşrin başa çatması Akademiya elminin böyük imkanlarını təsdiq etdi. Üç cildlik "Azərbaycan Respublikasının konstruktiv coğrafiyası" əsəri də uzun illər aparılmış tədqiqatların yekunudur.

M.Abdullayev və C.Əliyevin "Süni və təbii radionuklidlərin miqrasiyası", Q.Məmmədovun "Azərbaycanda torpaq islahatı: hüquqi və ekoloji aspektlər" (Azərbaycan və rus dillərində), K.Tuayevin "Azərbaycan quşlarının kataloqu", "Bioetika, elm və texnologiyaların etikası problemləri", X.Qasımovun "Polien makrolid antibiotiklərin quruluşu, fiziki-kimyəvi xassələri və membran funksiyaları", M.Seyidbəylinin "Rusiyada Azərbaycan diasporu: xüsusiyyətləri, formalaşması və inkişaf meylləri" əsərləri respublikamızla yanaşı, xarici mütəxəssislərin də diqqətini cəlb etmişdir.

Nəşriyyatda 10 elmi jurnal ("Azərbaycan Milli Elmlər Akademiyasının Məruzələri", "AMEA-nın Xəbərlər məcmuəsi", "Azərbaycan kimya jurnalı", "Azərbaycan MEA Türkologiya jurnalı" ayrı-ayrı elm sahələri üzrə 6 adda "Xəbərlər") buraxılır.

"Elm" nəşriyyatının ilk elmi yaradıcılarından və direktorlarından biri Azərbaycan EA-nın həqiqi üzvü Z.M.Bünyadov olmuşdur. Müxtəlif illərdə bu

müəssisəyə Ə.R.Xanbabayev, F.M.Məlikov, F.S.Əhmədov, Ə.N.Novruzova, Ş.H.Alışanov rəhbərlik etmişlər. 2014-cü ildən təşkilata H.X.Abıyev başçılıq edir.

Nəşriyyatın 70 illik fəaliyyəti dövründə bir çox yüksək ixtisaslı redaksiya-nəşriyyat mütəxəssisi yetişmişdir ki, onlardan R.Ə,Kərimova, V.B.Əliyev, Ə.Q.Musayeva, N.B.Xatunsev, Ə.M.Məmmədov, T.M.Ağayev, G.Ş.Davudova, V.A.Oqniyenko, O.M.İsmayılova, A.A.Cəfərova, G.Ə.Abdullayeva, A.Q.Cahangirova, X.M.Nəbiyevin adları ayrıca qeyd olunmalıdır. (Azərbaycan Milli Elmlər Akademiyası-70.-488s. S 444-445)

Azərbaycan Milli Elmlər Akademiyasının "Elm" Nəşriyyatında 2010-2017-ci illərdə 314 adda ümumi həcmi 8350, 2 çap vərəqi olan elmi əsərlər 169143 nüsxə tirajla nəşr edilmişdir. 2013-cü ildə nəşr olunan mühüm əsərlər: A. Rüstəmovanın "Seçilmiş əsərləri"-nin 2 cildi; "Azərbaycanda Heydər Əliyevin aqrar siyasəti" (Q. Məmmədov); "Bitkilərin anatomiyası və morfologiyası üzrə izahlı terminlər lüğəti"(T. Məmmədov); "Azərbaycan romantizmi, II cild" (V. Osmanlı); "Ermənilər və həqiqətlər" (V. Qaraoğlu); "Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi" (Ş. Alışanov); "XX əsr Azərbaycan poeziyası antologiyası, IV kitab"; Səməd Vurğun ilk Azərbaycan poeziyası antologiyasında" (F. Vəlixanova); "Milli strategiyalar, ideologiyalar və beynəlxalq münasibətlər: tarix, nəzəriyyə və praktikalar); "Hədisşünaslığın əsasları" (İ. Quliyev) və s. AMEA-nın nəşriyyat fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə 2014-cü ildə AMEA Rəyasət Heyəti Mərkəzi Aparatı tərkibində "Elm" Redaksiya-Nəşriyyat Poliqrafiya Mərkəzinin bazasında yeni strukturda "Elm" Nəşriyyatı yaradılmışdır.

2014-cü ildə nəşr olunan mühüm əsərlər: "Azərbaycan fəlsəfə tarixi, II cild"; "Xəlil Rza Ulutürk Seçilmiş əsərləri, III cild", "Ədəbiyyatımızın vicdanı- Məmməd Arif Dadaşzadə"; " Yaşar Qarayev, Seçilmiş əsərləri, I cild"; "Müasir kimyanın perspektiv istiqamətləri" (D. Tağıyev); "Radiasiya biologiyasına giriş" (E. Cəfərov); "Stress və bitkilərin adaptasiyası" (R. Əliyev, M. Abbasov, V. Rəhimli); "Kimya və həyat" (V. Fərzəliyev və b.) və s. (Hesabat AMEA -2013-2017--- S-215)

2015-ci ildə nəşriyyatda çap edilən kitabların böyük əksəriyyətini Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyi ilə əlaqədar yubiley nəşrləri təşkil etmişdir. Nəfis şəkildə hazırlanmış bu kitablardan "Akademiya simalarda", "Azərbaycan Milli Elmlər Akademiyası- 70" yubiley kitablarını, "Azərbaycan Milli Elmlər Akademiyası" yubiley bukletini, həmçinin Azərbaycan Milli Elmlər Akademiyası təsisçiləri silsiləsindən 16 adda biblioqrafik məlumat kitablarını göstərmək olar. 2015-ci ildə nəşr olunan digər mühüm əsərlər "Əlibəy Hüseynzadə-150. Məqalələr və xatirələr"; "Yaşar Qarayev. Seçilmiş əsərlər, II cild"; "Azərbaycan geologiyası (3cilddə)"; "Azərbaycanda fitoplazmanın molekulyar xarakteristikası və genetik müxtəlifliyi" (C. Əliyev, İ. Hüseynova və b.); "Tək atomdan supramolekulyar kimyaya" (D. Tağıyev, A. Məmmədov); "Радиоэкологические аспекты биогеоценозов" (C. Əliyev, Q. Məmmədov, M. Abdullayev) və s.(Hesabat AMEA 2015-I cild S-225)



Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilmişdir. Bununla bağlı olaraq "Elm" Nəşriyyatında akademik İsa Həbibbəyli və professor Natalya Sotnikovanın elmi redaktorluğu ilə "Мултикултурализм: тенденции и реальность" adlı məqalələr məcmuəsi kitab halında çap edilmişdir.

2016-cı ildə Yaşar Qarayevin Seçilmiş əsərlərinin IV və V cildləri; Tofiq Hacıyevin Seçilmiş əsərlərinin I cildi(I və II hissələr); "Birinci Türkoloji Qurultay və Azərbaycanda Türkologiya" adlı kitab və Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası seriyasından M. Ə. Rəsulzadənin məqalələri işıq üzü görmüşdür. Həmin il AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun 80 illik yubileyi ilə əlaqədar "Институт катализа и неорганической химии- 80 лет" adlı yubiley kitabı nəşr edilmişdir. AMEA-nın müxbir üzvü Bilal Bilalovun "Некоторые вопросы аппроксимации" adlı monoqrafiyası; Fərhad Xəlilzadənin "Elementar zərrəciklər fizikasının əsasları" əsəri və AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncağın materialları da nəşriyyatın 2016-cı ildəki mühüm məhsulları sırasındadır. (Hesabat 2016- I cild S-235-236)

Azərbaycan Milli Elmlər Akademiyasının "Elm" Nəşriyyatında 2017-ci ildə 68 adda ümumi həcmi 1532,7 çap vərəqi olan elmi əsərlər 43300 nüsxə tirajla nəşr edilmişdir. Onlardan 963,4 çap vərəqi olmaqla 28300 nüsxəsini elmi mövzuda kitablar, 569,3 çap vərəqi olmaqla 15000 nüsxəsini isə dövri nəşrlər təşkil edir. Bundan başqa, il ərzində AMEA Rəyasət Heyətinin rəsmi mətbu orqanı olan "Elm" qəzetinin ayda 2 nömrə olmaqla 24 nömrəsi 48000 nüsxə tirajla nəşr edilərək oxuculara çatdırılmışdır (cədvəl 1, 2).